**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin etik davranış məsələləri ilə bağlı 2023-cü ildə görülmüş işlər barədə illik hesabatı**

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 739 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üçün Strategiya"da nəzərdə tutulan tədbirlərin icrasını, o cümlədən korrupsiya barədə məlumat vermə, qərəzsizlik, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi, maraqların toqquşması və digər etik davranış qaydaları üzrə Əqli Mülkiyyət Agentliyi mütəmadi olaraq diqqət mərkəzində saxlamış və səlahiyyətləri daxilində müvafiq işlərin görülməsini təmin etmişdir.

Hesabat ili ərzində korrupsiya barədə məlumat vermə, qərəzsizlik, imtiyazların və ya güzəştlərin əldə edilməsinə yol verilməməsi, maraqların toqquşması və digər etik davranış qaydaları üzrə fərdi və kollektiv qaydada mütəmadi müzakirələr keçirilmişdir.

İcra intizamının pozulması ilə əlaqədar bəzi əməkdaşlar barəsində qanunvericiliyə uyğun olaraq müvafiq intizam tənbehi tədbiri görülmüş və bir neçə işçiyə xəbərdarlıq edilmişdir.

Agentliyin əməkdaşları "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" və "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası qanunlarının əsas məqsəd və prinsipləri, eləcə də Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyinin (indiki Əqli Mülkiyyət Agentliyi) 2008-ci il 26 may tarixli 72 nömrəli əmri ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularının etik davranış qaydaları" barədə məlumatlandırılaraq, onlara etik davranış qaydalarına əməl olunması, komanda daxilində işləmək bacarığı, iş yoldaşları arasında ünsiyyətin qurulması və etik davranışla bağlı digər məsələlər barədə tövsiyələr verilmişdir. Bu sahədə həyata keçirilən tədbirlər çərçivəsində 2023-cü ilin 22 dekabr tarixində Əqli Mülkiyyət Agentliyində "Etik davranış qaydaları, korrupsiyaya qarşı mübarizə, əmək və icra intizamı ilə bağlı məsələlər" mövzusunda təlim keçirilmişdir. Təlimdə "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" Qanunun əsas məqsəd və prinsipləri, Agentlik tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularının etik davranış qaydaları" və bu qaydalara əməl edilməsinin dövlət qulluğunda əhəmiyyəti, dövlət qulluqçularının bu sahədə qarşılaşa biləcəkləri problemlər haqqında məlumat və tövsiyələr verilmiş, etik davranış qaydalarına əməl olunmasına dair interaktiv formada geniş fikir mübadiləsi aparılmışdır.

Hesabat ili ərzində Agentliyin dövlət qulluqçuları tərəfindən etik davranış qaydalarının pozulması halları qeydə alınmamışdır.